AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

28 oktyabr 2022-ci il
Cümə

1933-cü ildən çıxır
№ 42 (3605)



# SAĞLAM QONŞULUQ MÜNASİBƏTLƏRİ REGİONUN İNKİŞAFINA TƏKAN VERİR

Gürcüstanla diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünə təsadüf edən səfər ölkələrimiz arasındakı iqtisadi və siyasi bağların möhkəmlənməsinə, o cümlədən normal qonşuluq münasibətlərinin inkişafına təkan verdi. Qafqazı "sülh evi"nə çevirmək üçün Azərbaycanın atdığı addımlar region dövlətlərinin birliyini hədəfləyir və qarşıya çıxacaq problemlərin həlli üçün çözüm yolunun birgə fəaliyyətlə tapılacağını bütün tribunalardan bəyan edir. Şübhəsiz ki, bu kimi çağırışlar regionda maraqları toqquşan bəzi güclərin xoşuna gəlmir. Və bölgədə sülhün əldə olunmasının, xalqların birgə yaşayışının onların "kefinə soğan doğraması" göz önündədir.

Oktyabrın 24-də Prezident İlham Əliyevin Gürcüstana sayca onuncu səfəri artıq tarixi hadisə kimi günə öz möhürünü vurdu. Səfərdən sonra gələcək gözləntilərin real mənzərəsini çizməyə çalışan siyasilər ölkə başçımızın diplomatik ustalığına xüsusi diqqət çəkdilər.



Qeyd edək ki, iki ölkə arasında diplomatik əlaqələr 1992-ci il noyabrın 18-də qurulub. 1995-ci ilin fevralında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin martında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verib.

1996-cı il martın 8-də imzalanan "Azərbaycan Respublikası ilə Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqavilə" strateji tərəfdaşlığımızın təməlini qoyan sənəddir.

Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindən biridir. Gürcüstanla Azərbaycanı Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin dəvəti ilə həyata keçirilən bu səfər zamanı iki ölkə arasında bir çox sahədə əlaqələrin daha da şaxələnməsinin vacibliyi vurğulanıb və qarşılıqlı maraq doğuran məsələlər ətrafında danışıqlar aparılıb.

İkitərəfli münasibətləri dəyərləndirərkən İlham Əliyev deyib ki, bu münasibətlər çox dərin ənənələr üzərində qurulub və əsrlərboyu xalqlarımız dostluq, qardaşlıq, mehriban qonşuluq şəraitində yaşayıblar. Dövlətlərarası əlaqələr də həmçinin bu möhkəm təməl üzərində pərvəriş tapıb.

İqtisadi əlaqələrə gəlincə, İlham Əliyev deyib ki, Azərbaycanda 695 Gürcüstan investisiyalı şirkət fəaliyyət göstərir. Ümumilikdə Gürcüstandan Azərbaycana 259 milyon ABŞ dolları, Azərbaycandan Gürcüstana isə 3,4 milyard ABŞ dolları məbləğində investisiya yatırılıb. Prezident qeyd edib ki, bu sərmayə qarşılıqlı faydalı sərmayədir, çünki hər iki tərəfin maraqlarına cavab verir.

2022-ci ilin 9 ayı ərzində isə qarşılıqlı ticarət dövriyyəsinin 1 milyard dollara yaxınlaşması, iqtisadi sahədəki əməkdaşlığın getdikcə daha çox sahəni əhatə etməsi qarşılıqlı münasibətlərin dinamik inkişafı üçün geniş perspektivlərin olduğundan xəbər verir.

2021-ci ildə Gürcüstan Azərbaycanın səkkinci xarici ticarət tərəfdaşı olub. Həmin ildə iki ölkə arasında ticarət dövriyyəsi 763 milyon ABŞ dolları təşkil edib, ikitərəfli ticarətin saldosu 558 milyon dollar ilə Azərbaycanın xeyrinə olub. 2022-ci ilin yanvar-avqust aylarında ikitərəfli ticarət dövriyyəsinin həcmi 525 milyon dolları ötüb. Gürcüstanla Azərbaycan arasında yükdaşımaların həcmi bu il 75 faiz artıb.

Prezident həmçinin Bakı-Tbilisi-Qars dəmir yolunun ötürmə qabiliyyətinin artırılacağını da diqqətə çatdırıb: "Biz bunu 5 milyon tona çatdırmaq fikrindəyik. Bu məqsədlə bu il və gələn il bu layihəyə Azərbaycan tərəfindən əlavə sərmayə qoyulacaq. Artıq bütün sərmayələr hazırdır və biz bu prosesə start vermişik. Çünki dünyada Xəzər üzərindən Azərbaycan, Gürcüstan və qonşu ölkələrdən keçən nəqliyyat yollarına böyük ehtiyac var".

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Gürcüstanın Azərbaycan üçün önəmli ölkə olduğunu qeyd edib. Bildirilib ki, Azərbaycan da Gürcüstanın strateji tərəfdaşıdır. İki dost ölkənin reallaşdırdığı tarixi layihələr - Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu və Orta dəhliz layihələri bundan sonra da irəliyə aparılacaq və görülən işlər daha da geniş vüsət alacaq. Görüş zamanı Gürcüstanın Baş naziri vurğulayıb ki, Gürcüstan İlham Əliyevin Cənubi Qafqazda əməkdaşlıq formatının yaradılması barədə Praqada irəli sürdüyü təşəbbüsü də birmənalı şəkildə dəstəkləyir.

Səfər çərçivəsində Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması məsələsi də müzakirə mövzusu olub. Prezident İlham Əliyev: "Ümid edirəm ki, Ermənistan tərəfi də siyasi iradə göstərərək beynəlxalq birlik tərəfindən tanınan bu əsas təməl prinsiplər əsasında Azərbaycanla sülh müqaviləsini imzalayacaqdır. Əgər belə olarsa, Cənubi Qafqaza sülh gələcək və eyni zamanda əməkdaşlıq üçün imkanlar yaranacaqdır. Bu gün eyni zamanda söhbət əsnasında Gürcüstan-Azərbaycan-Ermənistan məsləhətləşmələrinə başlaması haqqında fikir mübadiləsi apardıq. Əgər Ermənistan tərəfi buna hazırdırsa, biz buna hazırıq".

Prezident İlham Əliyevin Gürcüstana səfəri bir daha onu göstərir ki, bu gün işğaldan azad olunmuş ərazilərimizdə geniş quruculuq-abadlıq işləri aparmaqla yanaşı, ölkəmiz qonşu dövlətlərə də kömək əlini uzadır, onların iqtisadiyyatının dirçəlməsinə köməklik göstərir, beynəlxalq layihələrin icrasında birgəlik nümayiş etdirir. Bu isə regionda sülhün və əmin-amanlığın davamlı olmasına Azərbaycanın töhfəsidir.

## Rəsmi xronika

***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 26-da İsa Əkbər oğlu Həbibbəylinin Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsinə təsdiq edilməsi haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri oktyabrın 26-da Rövşən Mürvət oğlu Rüstəmovun Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini vəzifəsindən azad edilərək "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin olunması haqqında sərəncamlar imzalayıb.***

***Oktyabrın 26-da dövlətimizin başçısı Azərbaycan yazıçılarının XIII qurultayının iştirakçılarına təbrik məktubu ünvanlayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 26-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri kimi fəaliyyətə başlaması münasibətilə zati-aliləri cənab Rişi Sunaka təbrik məktubu ünvanlayıb.***

# DAXİLİ İŞLƏR NAZİRİ BƏRDƏDƏ VƏTƏNDAŞ QƏBULU VƏ SIRA BAXIŞI KEÇİRİB

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov oktyabrın 26-da və 27-də Bərdə Rayon Polis Şöbəsində daxili işlər orqanlarının fəaliyyəti və səlahiyyəti ilə bağlı məsələlərlə əlaqədar növbəti qəbul keçirib.

Daxili işlər naziri əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub.

*Ardı 2-ci səhifədə.*



# DAXİLİ İŞLƏR NAZİRİ BƏRDƏDƏ VƏTƏNDAŞ QƏBULU VƏ SIRA BAXIŞI KEÇİRİB

*Əvvəli 1-ci səhifədə.*

Daha sonra Rayon Polis Şöbəsinin inzibati binasında Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı, Naftalan şəhər və rayonlarının 152 sakinini qəbul edən nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini dinləyib, problemlərinin operativ həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə öz həllini tapıb.

Qəbula gələn vətəndaşlar onlara göstərilən diqqət və qayğıya, yerlərdə davamlı olaraq belə qəbulların təşkilinə, dövlət qurumlarının rəhbərləri tərəfindən müraciətlərinə operativ və obyektiv yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

Daha sonra general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. Xidmətə qəbulun şərtlərinə uyğun gələn 325 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 78-i Vətən müharibəsi iştirakçısı olub.





## KOMPLEKS ƏMƏLİYYAT-AXTARIŞ TƏDBİRLƏRİ NƏTİCƏSİNDƏ...

Cari ilin 9 ayı ərzində hüquq mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilən kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 8694 cinayət faktı aşkarlanıb. Onlardan 2941-i narkotik vasitələrin qanunsuz satışı, 5286-sı narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 387-si qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 80-i isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

Aşkarlanan faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunan 4 ton 827 kiloqram 532,775 qram və 32918 həb, 524 ədəd narkotik vasitələrin və psixotrop maddələrin 1 ton 963 kiloqram 632,152 qramını heroin, 1 ton 706 kiloqram 517,599 qramını marixuana, 268 kiloqram 584,935 qramını tiryək, 27 kiloqram 785,044 qramını həşiş, 260,95 qramını kokain, 130 kiloqram 847,843 qramını və 32918 həb digər narkotik vasitələr və 729 kiloqram 904,252 qram və 524 ədəd psixotrop maddələr təşkil edib. Həmçinin, göstərilən dövr ərzində 1 kiloqram 485,4 qram güclü təsir edən maddə, 10 kiloqram 037,6 qram zəhərli maddə, 79853 ədəd narkotik xassəli çətənə bitkisi qanunsuz dövriyyədən çıxarılıb.

Hesabat dövründə 6249 nəfər narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə cəlb edilib.

Hesabat dövründə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 530,883 hektar sahədən çəkisi 165 ton 756 kiloqram 608,85 qram olan narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilib.

Qanunsuz dövriyyədən çıxarılan 4 ton 827 kiloqram 532,775 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 168 milyon 635.000 AZN (99 milyon ABŞ dolları) kimi qiymətləndirilir.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun təşkilatçılığı ilə cari ilin 05-06 may tarixində məhkəmələrin qərarları ilə müsadirə olunmuş 2 ton 402 kiloqram müxtəlif növ narkotik vasitə, psixotrop maddə və onların prekursorlarının və 28.697 ədəd çətənə bitkisinin məhv edilməsi prosesi həyata keçirilib.

## "Diqqət, uşaqlar!" devizi altında tədbir keçirilib



Daxili İşlər Nazirliyinin müvafiq göstərişinə əsasən respublika ərazisində "Diqqət, uşaqlar!" devizi altında hərəkətin təhlükəsizliyi aylığı keçirilir.

**Xaçmaz Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin** əməkdaşları tərəfindən rayonun Zərifə Əliyeva adına olan 8 nömrəli tam orta məktəbində hərəkət iştirakçılarının maarifləndirilməsi məqsədilə tədbir keçirilib.

Tədbirdə çıxış edən RPŞ-nin Dövlət Yol Polisi Bölməsinin əməkdaşı, polis kapitanı Elçin Tağıyev bildirib ki, bu cür maarifləndirici tədbirlərin keçirilməsində əsas məqsəd şagirdləri yol hərəkəti təhlükəsizliyi qaydaları ilə tanış etmək və yeniyetmələrin iştirakı ilə baş verə biləcək yol qəzalarının qarşısını almaqdır. O, şagirdlərə yollarda quraşdırılan yol nişanları, işıqforlar və piyada keçidlərinin əhəmiyyətindən danışıb, nişanlardan düzgün istifadə qaydaları haqqında məlumat verib. Hərəkətin sıx və intensiv olduğu küçələrdə hərəkət edərkən daha ehtiyatlı olmalarını şagirdlərin diqqətinə çatdıran E.Tağıyev yol ayrıclarında piyada keçidlərindən istifadə etməyin zəruriliyini bildirib.

Tədbirin sonunda polis əməkdaşları tərəfindən şagirdlərə təhlükəsizlik qaydaları əyani şəkildə izah olunub.

Sonda dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

*Xəyal Talıbov,*
*polis leytenantı*

## Aktual mövzular müzakirə edilib




Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi, hüquq mühafizə orqanları əməkdaşlarının peşə vərdişlərinin daha da inkişaf etdirilməsi istiqamətində oktyabrın 18-dən 20-dək Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi tərəfindən təşkil edilən "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər üzrə əməliyyat-axtarış fəaliyyətinin xüsusiyyətləri və aktual problemləri" mövzusunda təlim keçirilib.

Distant formada və canlı vaxt rejimində keçirilən təlimdə daxili işlər, gömrük və sərhəd xidməti orqanlarının əməkdaşları dinləyici qismində iştirak ediblər. Daxili İşlər Nazirliyinin və Baş Prokurorluğun peşəkar əməkdaşları tədbirə təlimçi qismində cəlb ediliblər.

Kurs çərçivəsində dinləyicilərə "Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı milli mübarizə strategiyası, bu sahədə olan problemlərin mahiyyəti və aktuallığı", "İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent təcrübəsi üzrə əməliyyat-axtarış fəaliyyəti gedişində əldə edilmiş dəlillərdən sübut kimi istifadə etmənin mümkünlüyü meyarları" və sair mövzular üzrə məşğələlər tədris edilib.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində təlim-tədris tədbirlərinin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

*N.Cavadov*

## Bu, həm də vəzifə borcudur...

Polisin həyat qurtarmaq üçün köməyə çatmasını, operativliyini özündə əks etdirən görüntülərin sosial şəbəkələrdə dəfələrlə şahidi olmuşuq. Həm tərəfimizdən maraqla qarşılanan, həm də ictimaiyyətin diqqətini çəkən bu faktlara izləyicilərin münasibəti "Polis xilaskardır" fikri ilə öz möhrünü vurub. Bir neçə gün öncə şahidi olduğum hadisəyə də polisin müdaxiləsi bir göz qırpımında oldu.

Bakı Dəmiryol Vağzalında eskalatorla qalxan sərnişinlərdən birinin halının pisləşməsini görən Dəmir Yol Nəqliyyatında Polis İdarəsinin əməkdaşları dərhal ona ilkin tibbi yardım göstərib rəhbərliyə məruzə etdikdən sonra təcili tibbi yardımla əlaqə saxladılar.

Həkim müayinəsindən sonra məlum oldu ki, vətəndaş hipertoniyadan əziyyət çəkir. Polis əməkdaşları Bakı şəhər sakini M.Vəliyevanın vəziyyəti barədə yaxınlarına da məlumat verdilər.

Həmin gün xidmətdə olan və vətəndaşın köməyinə çatan həmkarlarımızın adını qeyd etməyi özümüzə borc bilirik: **DYNPİ-nin polis baş serjantı Natiq Qafarov, polis serjantı Şahmar Paşanov və polis kiçik serjantları Fuad Abbaslı, Səddam Sadıqov, Pərviz Ələkbərov, İlkin Şamxalzadə.**

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*



# Erkən nikahlar faciələrə yol açır



Şirvan Şəhər Gənclər Evində "Erkən nikah, düşünülməmiş addım" mövzusunda təlim-seminar keçirilib.

Tədbirdə Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşları, Təhsil şöbəsinin və Mərkəzi Xəstəxananın nümayəndələri, eləcə də Şirvan Şəhər Peşə Məktəbinin tələbələri iştirak ediblər. Görüşün əvvəlində torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan igid oğullarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

**ŞPŞ-nin rəis müavini, polis polkovnik-leytenantı Farid Vəliyev** erkən nikahların fəsadları, xüsusən də qızların erkən yaşda ailə qurmasının onların gələcəkdə fiziki və mənəvi sağlamlığı üçün ciddi təhlükə törətdiyini qeyd edib. O, gələcəyin müasir biliklərə yiyələnmiş mütəxəssislər kimi yetişmələrinin önəmini tələbələrin diqqətinə çatdırıb.

Çıxış edənlər bu cür halların yolverilməzliyini, erkən yaşda nikaha daxil olmanın qanunla qadağan olduğunu bildiriblər.

Tədbir zamanı erkən nikahların fəsadları ilə bağlı videoçarx nümayiş etdirilib və tələbələri maraqlandıran suallar cavablandırılıb.

*Nizam Həmidov,*
*polis kapitanı*



# DOĞRU SEÇİM UĞURA YOL AÇIR



**Daxili İşlər Nazirliyinin Polis Akademiyasının və Masallı Rayon Polis Şöbəsinin** əməkdaşları rayonun IX-XI sinif şagirdləri ilə görüşüblər. Görüşün keçirilməsində əsas məqsəd yeniyetmə və gənclərimizin təhsilə təşviq edilməsi, sağlam həyat tərzinin təbliği, eləcə də onlarda vətənpərvərlik hissinin daha da yüksəldilməsidir.

Masallı şəhər Mədəniyyət evində təşkil olunan görüşdə Polis Akademiyasının, Masallı Rayon Polis Şöbəsinin əməkdaşları, pedaqoqlar və məktəblilər iştirak ediblər.

RPŞ-nin rəisi, polis polkovniki Azay Ağayev, Polis Akademiyasının şöbə rəisi, polis polkovniki Fərhad Əliyev, Rayon İcra Hakimiyyəti başçısının müavini Aybəniz Qafarova və digərləri çıxışlarında bildiriblər ki, cəmiyyətimizin və güclü Azərbaycan dövlətinin işıqlı gələcəyi məhz savadlı və sağlam gənclikdən asılıdır. Yeniyetmə və gənclərə bir daha izah edilib ki, təhsil onların gələcək həyatı üçün müsbət və həlledici amildir.



Ali təhsil almaq arzusunda olan məktəblilərə Polis Akademiyası barədə ətraflı məlumat verilib, qocaman təhsil müəssisəsinin ölkəmizdə savadlı kadrların yetişməsində, daxili işlər orqanlarının hüquqşünaslarla təmin olunmasında mühüm rol oynadığı diqqətə çatdırılıb.

Tədris prosesinə, kursantların hazırlığına həsr edilmiş videoçarx nümayiş olunub və məktəblilərin sualları cavablandırılıb.

**Şəki və Oğuzda** da gənclərin zərərli vərdişlərdən uzaq tutulması, onların təhsilə və idmana cəlb edilməsi, eləcə də layiqli vətəndaş kimi yetişməsi məqsədilə yuxarı sinif şagirdləri ilə görüşlər keçirilib.

Görüşlərdə Daxili İşlər Nazirliyinin Polis Akademiyasının müəllimləri, aidiyyəti Rayon Polis şöbələrinin əməkdaşları, pedaqoji heyət, valideynlər və məktəblilər iştirak ediblər.

Tədbirlərdə çıxış edən Polis Akademiyasının əməkdaşı, polis polkovniki Əziz İsaxanov iştirakçıları salamlayıb, bu istiqamətdə keçirilən görüşlərin mahiyyətini açıqlayıb. Daha sonra ali təhsil müəssisələrinə hazırlaşan, daxili işlər orqanlarında xidmət etmək həvəsində olan abituriyentlərə Polis Akademiyasına kursant qəbulu qaydaları ilə bağlı ətraflı məlumat verib. Akademiyada savadlı kadrların yetişdirilməsi üçün yaradılan müasir şərait, zəngin kitabxanalar, xarici dil kursları, laboratoriyalar, yataqxanalar və asudə vaxtlarının səmərəli təşkili məqsədilə görülən işlərdən danışıb.

Sonda diskussiya şəklində davam edən tədbirlərdə məktəblilərin sualları əhatəli cavablandırılıb və ali təhsil müəssisəsinin imkanlarını özündə əks etdirən videoçarxlar nümayiş olunub.

*Mahir Məsimov,*
*Məhəmməd Rzayev*

# Milli qəhrəmanın xatirəsi anılıb

Birinci Qarabağ müharibəsində igidliyi ilə tarix yazan və şəhidlik zirvəsinə ucalan polis baş serjantı, Azərbaycanın Milli Qəhrəmanı Vasiliy Əliyevin anım günü ilə əlaqədar Qubadlı Rayon Polis şöbəsinin rəhbərliyi onun ata yurdunda məzarını ziyarət ediblər.

Qubadlı RPŞ-nin rəisi, polis polkovniki Bəhruz Cabbarov şəhidimizin keçdiyi döyüş yolundan, cəsurluğundan söhbət açıb, onun gənc nəslə örnək bir ömür yaşadığını bildirib.

Qeyd olunub ki, Vasiliy kimi qəhrəman oğullarımızın qanı yerdə qalmadı. Xalqımızın birliyi, Ali Baş Komandanın iradəsi, qətiyyəti və ordumuzun gücü sayəsində torpaqlarımız 44 günlük Vətən savaşından sonra öz bütövlüyünə qovuşdu. Tarixi ədaləti bərpa etməklə düşmənə və onun havadarlarına sübut etdik ki, Azərbaycan regionun ən güclü, qüdrətli dövlətidir.

Daha sonra çıxış edənlər qəhrəmanın döyüş yolundan, mübarizliyindən söz açıb, şəhidlərin əziz xatirəsinin heç bir zaman unudulmayacağını vurğulayıblar.

Polis baş serjantı Vasiliy Əliyev 1959-cu ildə Qubadlıda doğulub. 1980-ci ildə Qubadlı Rayon Polis Şöbəsində xidmətə başlayıb.



1992-ci ilin oktyabrın 20-də Qubadlının müdafiəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. O, Azərbaycan Respublikasının Prezidentinin 11 may 1993-cü il fərmanı ilə "Azərbaycan Milli Qəhrəmanı" adına layiq görülüb.

Yeri gəlmişkən, şəhid polis baş serjantı Vasiliy Əliyevin həyat yoldaşı Aygün Əliyeva Sumqayıt ŞPİ-nin Kadr və peşə hazırlığı qrupunun baş inspektoru, polis mayorudur, oğlu Elmir Əliyev Sumqayıt ŞPİ-nin xidmətetmə personalının sürücüsü, polis baş serjantıdır. Qızı Zülfiyyə Əliyeva isə Sumqayıt ŞPİ-nin katibliyinin operatorudur.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Oğurluğa cəhdin qarşısı alınıb

Paytaxtda və bölgələrdə polisin mühafizəsinə verilən şəxsi evlər, eləcə də obyektlər günün 24 saatı etibarlı şəkildə qorunur desək yanılmarıq. Xətai Rayon Mühafizə İdarəsinin əməkdaşları tərəfindən rayon ərazisində oğurluğa cəhdin qarşısının elə anındaca alınması bunu deməyə əsas verir.



Belə ki, oktyabrın 24-də saat 22:03 radələrində xüsusi texniki vasitələrlə qorunan evlərdən birindən DİN Baş Mühafizə İdarəsinin kompüterləşdirilmiş Mərkəzi Mühafizə Məntəqəsinə həyəcan siqnalı daxil olub. Alınmış məlumat əsasında əraziyə gələn **Xətai RMİ-nin tutucu qrupunun əməkdaşları, polis baş serjantı Ceyhun Hüseynov və polis serjantı Kamran Hüseynli** yüksək peşəkarlıq nümayiş etdirərək evə oğurluq məqsədilə girən şəxsi saxlamağa nail olublar.

Oğurluğa cəhdin qarşısının alınması, eyni zamanda evin mühafizəsinin tam təmin olunması barədə aidiyyəti üzrə RMİ-nin rəhbərliyinə məruzə edən əməkdaşlarımız təqsirkarı Xətai RPİ 37-ci Polis Şöbəsinə təhvil veriblər.

İlkin araşdırma zamanı saxlanılan şəxsin zərərçəkmişin qonşusu E.Hüseynzadə olduğu və hadisəni tamah məqsədilə törətdiyi müəyyən olunub. O, qonşusunun həmin gün toyda olacağını bildiyi üçün oğurluğu öncədən planlaşdırdığını, evə girərkən orada işləyən usta ilə əlbəyaxa olaraq onun əlinə yerdən tapdığı küt alətlə xəsarət yetirdiyini, polislər gələn zaman isə yaşadığı ünvana qaçaraq mənzilinin zirzəmisində gizləndiyini etiraf edib.

Faktla bağlı toplanmış materiallar Xətai Rayon Məhkəməsinə göndərilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Polis baş leytenantı ÇEMPİON oldu

Bu günlərdə Azərbaycan Atıcılıq Federasiyasının təşkilatçılığı ilə Bakı Atıcılıq Mərkəzində "dairəvi stend (skeet) və səngər stend (trap)" atıcılığı növü üzrə Azərbaycan çempionatı keçirilib.

Yarışda ölkəmizin müxtəlif şəhər və bölgələrindən olan idmançılar iştirak ediblər.



Hədəfi dəqiq nişan almaq istəyənlərin mübarizəsində DİN İdman Cəmiyyətinin yetirmələri Nurlana Cəfərova, Ağazadə Mirmömin və Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin qanunsuz miqrasiyaya qarşı mübarizə idarəsinin analitik qrupun inspektoru, polis baş leytenantı Riqina Meftaxetdinova çempion adını qazanıblar.

Qaliblərə, Azərbaycan Atıcılıq Federasiyasının vitse-prezidentləri Tofiq Bəylərov və stend atıcılığı üzrə Olimpiya çempionu, DİN İdman Cəmiyyətinin sədri, polis polkovniki Zemfira Meftaxetdinova tərəfindən diplom və medallar təqdim edilib.

*R.Vəliyev*





# Maarifləndirməklə də mübarizə aparırıq





**Beyləqan, Saatlı, Astara, Yevlax Rayon Polis şöbələrinin, eləcə də paytaxtın Xətai, Səbail Rayon Polis idarələrinin** təşkilatçılığı ilə orta məktəblərdə "Narkomaniya və erkən nikaha yox deyək!" mövzusunda maarifləndirmə tədbirləri keçirilib.

Çıxış edənlər hər bir yeniyetmə və gənci zərərli vərdişlərdən uzaq durmağa çağırıblar. Qeyd olunub ki, belə görüşlərin keçirilməsində əsas məqsəd də məhz yeniyetmə və gəncləri narkomaniyanın və digər zərərli vərdişlərin mənfi nəticələri, doğurduğu fəsadlar barədə məlumatlandırmaq, onları belə neqativ əməllərdən çəkindirməkdən ibarətdir. Çünki narkotik vasitələrdən istifadə edərək özünü fiziki və psixoloji cəhətdən məhv aparan insan nə yaxınları, nə də cəmiyyət üçün layiqli vətəndaş ola bilməz.

Tədbirlərdə erkən nikaha daxilolma probleminə də toxunulub. Bu kimi hallara qarşı təhsil müəssisələrində, ictimai yerlərdə, kütləvi informasiya vasitələrində davamlı izahat-maarifləndirmə və ictimai qınaq tədbirlərinin keçirilməsinin vacibliyi vurğulanıb. Erkən nikahların yetkinlik yaşına çatmayan uşaqların hüquqlarının pozulmasına, vaxtsız qurulan ailələrin dağılmasına və cəmiyyətdə sosial problemlərin artmasına səbəb olduğu bir daha diqqətə çatdırılıb.

Daha sonra tədbirlərdə çıxış edən valideynlər polis əməkdaşları tərəfindən təhsil müəssisələrində həssas bir mövzuya həsr olunan görüşlərin keçirilməsini yüksək qiymətləndirib, verilən dəyərli tövsiyələrə hər kəsin əməl etməsi üçün dəstəklərini ifadə ediblər.

*"Polis"*

# Gənc idmançılar mübarizə apardılar

**Oktyabrın 19-da** Ağdam Olimpiya İdman Kompleksində Qarabağ-Zəngəzur bölgəsindən olan məşqçilər üçün Cüdo Federasiyanın hakimlər heyətinin üzvü, beynəlxalq dərəcəli "B" kateqoriyalı hakim Məhəmmədəli Quluzadənin rəhbərliyi ilə keçirilən seminarda cüdoçuların cərimə olunacağı hallar barədə ətraflı məlumat verilib.



Seminar zamanı iştirakçıları maraqlandıran suallar hakimlər tərəfindən cavablandırılıb, bir sıra fəndlər əyani şəkildə nümayiş olunub.

Qeyd olunub ki, Azərbaycan Cüdo Federasiyası bundan sonra da region idmançılarının rəqabət qabiliyyətlərinin artırılması və regionlarda cüdonun daha da kütləviləşdirilməsi üçün müvafiq tədbirləri davam etdirəcək.

**Oktyabrın 20-də** isə Ağdam Olimpiya İdman Kompleksində U-15 və U-18 yeniyetmələr arasında cüdo üzrə region birinciliyi keçirilib.

Dövlət Himni səsləndirildikdən və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra yarış açıq elan olunub. Ağdam Rayon İcra Hakimiyyətinin və Ağdam Olimpiya İdman Kompleksinin yetkililəri çıxış edərək idmançılara uğurlar arzulayıblar.

Yarışda Qarabağ-Zəngəzur regionundan olan 7 komandadan 76 idmançı medallar uğrunda mübarizə aparıb.

Turnirin mükafatçıları Bakı şəhərində keçiriləcək kiçik yaşlı yeniyetmələr arasında Azərbaycan birinciliyinə vəsiqə qazanıblar.

***Qeyd edək ki, təşkil olunan seminarda və yarışda Cüdo idman növü üzrə birinci dərəcəli hakim, Daxili İşlər Nazirliyinin Nəqliyyatda Baş Polis İdarəsinin Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşı, polis baş leytenantı Ayaz Abbasov da iştirak edib.***

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Nəsimi RPİ-nin 22-ci Polis Şöbəsinə** oktyabrın 19-da saat 22:00 radələrində rayon ərazisində kirayədə yaşayan Bakı şəhər sakininin evinə gələn 2 nəfərin bıçaqla ona xəsarət yetirərək evdən 4500 manatını talayıb aparmaları barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər dəfələrlə məhkum olunmuş A.Qafarov və Lənkəran rayon sakini R.Əhədzadə müəyyən olunaraq saxlanılıblar.

◆◆◆

**Tovuz Rayon Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində rayon ərazisindəki evlərin birindən 5500 manat dəyərində qızıl-zinət və məişət əşyaları, digər evdən isə 10.000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən rayon sakini A.Rüstəmov müəyyən olunaraq saxlanılıb.

◆◆◆

**Samux Rayon Polis Şöbəsinə** İnstitut qəsəbəsi ərazisində yerləşən zavoddan 12.680 manat dəyərində 16 ədəd elektrik mühərriki və 4 ton dəmirin oğurlanması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Gəncə şəhər sakinləri E.Məmmədov və E.Həsənov müəyyən olunaraq saxlanılıblar.



# Qanunsuz fəaliyyət göstərirdilər...

Yollarda hərəkətin təhlükəsizliyinin təmini, intizamın möhkəmləndirilməsi, eləcə də yol hərəkəti qaydalarını pozan sürücülərə qarşı mütəmadi olaraq Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən tədbirlər görülür.

Tədbirlərin davamı olaraq Bakı şəhər DYPİ-nin əməkdaşları digər aidiyyəti qurumlarla birgə paytaxtda qanunsuz taksi fəaliyyəti, parklanma və digər çatışmazlıqların aradan qaldırılması istiqamətində reydlər həyata keçiriblər.

Reydlər zamanı əsasən lisenziyası olmayan, standartlara cavab verməyən, qanunsuz fəaliyyət göstərən taksilər aşkarlanıb, sürücülərlə maarifləndirmə söhbətləri aparılıb, hüquqi izahatlar verilib, onlara qanunun tələblərinə uyğun fəaliyyət göstərmələri tövsiyə olunub. Ciddi qanun pozuntularına yol verən, o cümlədən fərqlənmə nişanı olmayan sürücülərə qarşı İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə uyğun tədbirlər görülüb.

Reydlərin daimi xarakter daşıyacağı da sürücülərin diqqətinə çatdırılıb.

*T.Əlizadə*

# Hərbi qulluqçumuzun daha bir uğuru

***Ruslan Lunyov güllə atıcılığı üzrə dünya çempionatında gümüş medal qazanıb***



Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçusu, kapitan Ruslan Lunyov Misirin Qahirə şəhərində keçirilən güllə atıcılığı üzrə dünya çempionatında iştirak edib. Təmsilçimiz 25 metr məsafəyə tapançadan atış yarışında gümüş medal qazanıb.

*C.Natiq*

# STATİSTİKA

## Kriminal icmal

- Oktyabrın 19-dan 27-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan 441, əvvəlki dövrlərdən bağlı qalan 48 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 500, o cümlədən borclu şəxs qismində axtarışda olan 360 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 26 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 26 nəfər ölüb, 8 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 228, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 29 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 19:00
Qiyməti 40 qəpik